HÜSEYNBALA MİRƏLƏMOV

# TAMAŞA

(Hekayə)

Ötən əsrin 70-ci illəri idi. Sovetlər İttifaqının ən qabaqcıl respublikalarından biri və bəlkə də birincisində həyat ikimərtəbəli ev kimi idi. Əslində paytaxtlar paytaxtında respublikalardan bir şey tələb olunurdu. "Planların" yerinə yetirilməsi.

Çünki okeanın o tərəfindəki böyük kapitalist ölkəsi ilə siyasi birincilik uğrunda yarış bunu tələb edirdi.

Respublikalarda da siyasi rəhbərliyin vəzifəsi bu idi. Sənaye və kənd təsərrüfatı planları yerinə yetirilirdisə, onda həmin respublikaların rəhbərinə hər şeydə güzəşt edilir, nisbi də olsa, sərbəstlik verilirdi.

Cənubi Qafqaziyyə respublikası olan Azadstan bu cəhətdən bütün ölkədə ad çıxarmışdı. Çünki respublika rəhbəri həqiqətən respublikanın bütün canlı resurslarını bir şeyə - dövlət planlarının artıqlaması ilə yerinə yetirilməsinə səfərbər etmişdi. Bu səfərbərlik birillik, ikiillik deyil, daimi idi. Və əhali də yuxarıdan-aşağıya bu gərgin əmək işinə alışmışdı.

Amma biz bu içlərdən, bu məsələlərdən, nisbi firavanlıqdan bəhs etəməyəcəyik. Çünki bu, bədii əsər mövzusu deyil. Biz xalqın heç bir siyasi-ictimai

quruluşda dəyişməyən əbədi mənəvi-psixoloji mahiyyətinə aid bir hadisəni qələmə alacağıq.

Ədhəm Səlimov respublika rəhbərinin ən yaxın adamı və etibarlı dostu kimi səfalı və zəngin Cənub rayonunun rəhbəri idi.

Səhər idi. Yay günəşi mavi Xəzər üzərindən yenicə doğub bu gün gözəl bir hava olacağını bildirərək ala-bula buludlar arasından gah çıxır, gah da batırdı. Hava sərin idi.

Hələ öz mülkündə yatağında ikən Ədhəm müəllim bu gün neyləyəcəyini müəyyən etmişdi. Ona görə də sübh çağı dənizə gedib Xəzərin təmiz mavi sularında çimmiş, sonra isə orada – dəniz kənarında düzəldilən səhər süfrəsində dünyanın ən ləziz yeməklərindən doyunca yeyib, daha sonra isə iş yerinə gəlmişdi.

Bu gün çox gərgin gün olacaqdı. Səhər plenum iclası çağırılmışdı. Ədhəm müəllim geniş, uzun stolun arxasında oturub çoxdan yazmaqda olduğu roman-pyesinin son səhnəsini tamamlayırdı. Ona görə heç kimi içəri buraxmırdılar. Rayonun bütün rəhbər işçiləri və vəzifə sahibləri yığışıb nə vaxt içəri dəvət olunacaqlarını gözləyirdilər. Aydındır ki, o, rayonun əsl xozeyni idi. Çünki öhdəsinə düşən vəzifəni – təsərrüfat planlarını artıqlaması ilə yerinə yetirirdi.

Bu gün illik təsərrüfat planının yerinə yetiriləcəyi təsdiq və elan olunacaqdı. Bir sözlə, əsl bayram idi.

Nəhayət o, uzun illərdən bəri üzərində işlədiyi pyesini bitirdi. Özü də ürəyi istədiyi kimi.

Biz bu çoxpərdəli və çoxşəkilli dram əsəri haqqında da söhbət açmayacağıq. Çünki əsər tarixi mövzuda olub çox əhəmiyyətli hadisəyə - güclü hökmdarla xalqının

qarşılıqlı münasibətləri kimi çox əhəmiyyətli və əbədi problemə həsr olunsa da hekayəmizin əsas mətləbi deyil. Əsas məsələ nədir, onu görəcəksiz.

Artıq saat 12 idi. Ədhəm əlyazmasını başa çatdırıb büküb kənara qoydu. Sonra katibəyə zəng vurub plenumun başlandığını bildirdi.

Oturmaqdan və koridorda gəzişməkdən bezikən və öz-özünə deyinən "aktiv" nəhayət bir-bir geniş, uzun otağa daxil olub hərə öz yerində oturdu.

Ədhəm plenumu açıq elan edib məruzə üçün sözü öz kukla katibinə - yəni ikinci katibə verdi və yaraşıqlı riyaziyyat müəllimısi çıxıb rayonun təsərrüfat planları, qabaqcıl sovxoz və təsərrüfatlar və nəhayət ayrı-ayrı qabaqcıllar haqqında geniş, uzun-uzadı məruzə etdi. O qədər uzun çəkdi ki, hətta Ədhəm də qaş-qabağını tökdü.

Nəhayət, xanım onun üçün gənc instrukturların yazdığı məruzəni başa çatdırdı.

Sonra çıxışlar başlandı.

Ədhəmin fikri isə nəhayət bitirdiyi əsərdə və bir də onu harda çap etdirəcəyi barədə düşüncələrdə idi.

Xülasə, planların, xüsusilə dövlətə satılan tərəvəzin yerinə yetirildiyi, rayonun külli miqdarda gəlir qazandığı elan edildi. Qabaqcıl əməkçilərin adları sadalandı, onlar üçün orden, medal və pul mükafatları elan olundu. Bu adları və adamları Ədhəm özü seçmişdi. Onlar əsasən onun yaraşıqlı məşuqələri idilər ki. əslində təsərrüfatlara və tərəvəzə çox az aidiyyətləri vardı. Bu məhsulları sadə əməkçi qızlar yığır, "qəhrəmanlar" isə sadəcə gəlib sahələri gəzir, qızlarla söhbət edir, sonra başqa işlərlə "məşğul olurdular."

Ədhəmin tarixi piyes-roman yazdığını paytaxtda demək olar ki,  hamı eşitmişdi.  Ona görə bu məsələ Yazıçılar İttifaqında radio və televiziyada,  teatırlarda və nəhayət nəşriyyatlarda  hamını maraqlandırırdı. Çünki, hamı bilirdi ki,  əsərin  oxunuşu,  çapa hazırlanması və nəşri yaxşı qazanc mənbəyidir.

Onun ilk oxunuşu kimə etibar edilsə,  əlbəttə həmin evə dolu zənbillər və yaxşı pul gələcək.

Plenum və raportdan sonra tək qalıb tək qalıb əsərinin əlyazmasını bir də götürüb vərəqlədi və neçə aydan bəri bətnində gəzdiridiyi bu "övladın" onunçun evdəki övladları qədər əziz olduğunu hiss edib ordan-burdan bir neçə sətir oxuyub razı qaldı.

Sonra telefonu götürüb əvvəl  "Ədəbiyyat qəzeti"nin redaktoru  Qadanalem Nərimanlıya  zəng vurdu.

- Eşidirəm,  əzizim, - deyə telefondan səs gəldi.

- Nə var nə yox,  vəziyyətin necədir.

- Sağ ol,  qadan alım,  siz necəsiz.

- Çox yaxşı. Bir informasiya  verim,  qalanını özün bəzəyərsən.

- Gözüm üstə,  buyur.

- Deməli,  çoxdan yazmaqda olduğum "Şanlı illər"  adlı roman-pyesimi   başa çatdırmışam.  Bilirsən də,  dahi şayirimiz Məhəmməd   Füzulinin həyat və məhəbbətindən, voopşem,  ömür   yolundan bəhs  edir. İyirmi çap vərəqi həcmində.

- Maşallah,  yaxşıdır.

- Hə,  qalanı sənin işindir.  Özüm özümü tərifləyə bilmərəm.

- Aydındır,  göz üstə.

- Bu nömrədə olacaq da?

- Bəlli,  əlbəttə.
- Yaxşı, sonra  bir  bu tərəflərə gələrsən.

Dəstəyi qoyub  sonra  "Kommunist" qəzetinə  zəng vurdu. Təxminən eyni sözləri də  ordakılara  dedi.

Əlbəttə son cümləsi ilə. Çünki  bu cümlə həmin məsul adamlar üçün daha əhəmiyyətli idi və onlar bunun nə demək olduğunu gözəl bilirdilər. Bu,  kürü,     balıq və cəmdək demək idi.

- Bəli,  deyə 45 yaşlı əyalət rəhbəri gur və qara saçlarını sığallayıb məmnun halda güldü. Allah  eloğlum və qardaşım  rəhbəri var eləsin ki, İsfahan çayxanalarından canımızı qurtardı və onun sayəsində  bu cür köpəklər qabağımda mil durub. Əvvəllər heç məni saya almırdılar. Bəli, hakimiyyət və pul! Dünyada bunlardan real heç nə yoxdur.  Qardaşım ki, mənə bu səlahiyyəti verib istifadə etməliyəm. Aydınıdr ki, ağılla, ehtiyatla. Amma eyni zamanda qətiyyətlə.  İstədiyimi edib bu vəzifə hərislərinin arvad-uşaqlarını o məsələ... Əlbəttə, heç bir səs çıxmayacaq.

Da, qardaşıma  o lazımdır ki, vaxtaşırı təsərrüfat planlarının yerinə yetirilməsi barədə  raport  verim. Sonra, nə istəsəm, edə bilərəm.  Rəhbər stavka etdiyi  kəsləri heç vaxt ələ vermir.

Da, amma hiss olunur ki,  vaxtı  gələndə kreslonu dəyişmək lazımdır. Ona,  mənə də. Ha, ha, ha... Çox yağlanmışıq. Su bir yerdə qalanda iy verər.

Onu  əvəz etməyə qoymazlar. Özü də razı olmaz.  Heç ehtiyacım da yoxdur.  Ömürlük bəsimdir.  Amma üçüncü, dördüncü adam kimi  hələ 5-6 il də paytaxtda yağlana bilərəm.  Və bu lazımdır. Bir dəfə özü mənə demişdi.

Amma iki-üç aydan sonra. Qoy əsər də çapdan çıxsın. Səhnədə və televiziyada göstərilsin, sonra.

Belə düşünüb ağıllı və qətiyyətli raykom katibi ayağa qalxdı. Nahar yeməyinin vaxtı çatmışdı. Nahardan sonra o işə də baxmaq olardı. Hə, yaxşı bir film də gəlib, zalda arvad-uşaqla baxmaq olar.

Beləcə o, zəngi basıb aşbaza nahar yeməyini xatırlatdı və qapıda dayanıb qəbulla gələnləri içəri dəvət etdi. Katibəyə dedi:

- Onlara de ki, hərəsinə beş dəqiqə vaxtım var. Beş dəqiqə.

- Baş üstə, yoldaş katib.

- Hə, bir-bir gəlsinlər.

Bunlar əsasən kənd adamları idilər ki, sovxoz direktorlarından şikayətə gəlib əmək haqlarının kəsilməsindən narazı idilər.

Katib də bu milçəklərin istədiklərini yerinə yetirirdi. Beş-on manat nədir ki, haqqında narazılıq yaransın.

Lakin bir şikayətçinin məlumatını eşidib Ədhəm müəllimin qırmızı çöhrəsi qəzəbdən pul kimi qızardı.

- Sən buina əminsənmi? Qərəzlik etmirsən ki? Faktı öz gözlərinlə görmüsənmi?

- Bəli, yoldaş Əhdəm müəllim, özüm onun xüsusi bir evdə qızla əlaqədə olduğunu güdmüşəm.

- Hə, yaxşı, get mən gələn plenumda onu direktorluqdan qovub türməyə yola salaram. Camaatın namusuna toxunmağın nə olduğunu orda bilər.

Məsələ onda idi ki, Ədhəm müəllim sovxozlarda, elə başqa yerlərdə də rəhbərlərin və rəislərin hər bir şıltaqlığına dözər, amma bu məsələdə güzəşt bilməzdi.

Səbəbi də aydın idi. Özünün məşğul olduğu işlə bir başqası da məşğul olsa artıq söz-söhbət başlanardı.

Qəbuldan sonra katib yaxşıca yeyib-içib elə oradaca divanda yatdı. Sonra durub çay içib gözəl bir sarışın məşuqələrindən biri qəbul etdi və...

İki gün sonra xəbər verdilər ki, paytaxdan bir neçə nəfər qəbula gəlib.

- Kimlərdir?

Katibə cavab verdi.

- Xalq şairi Göyçayski, "Müəllif" nəşriyyatının direktoru Əbilzadə, və kinorejissor Mərdanski.

- Yaxşı, əvvəl xalq şairini, sonra da o birilərini növbə ilə burax.

- Baş üstə.

Və şöhrətli şair qapını açıb içəri girdi.

Ədhəm yerindən durub onu qarşıladı və təəccüblə hiss etdi ki, şair öpüşmək niyyətindədir. Bəli, öpüşdülər.

Yerinə keçib əliylə stolu göstərib – nə əcəb bizi yad etmisiz? – dedi.

İri gövdəi şair oturub - qəzetdə oxuyanda ki, Ədhəm əsər yazıb, dedim ayə, bu kişi bu qədər bizə hörmət edib, xəcalətindən çıxmaq üçün bundan gözəl fürsət ələ düşməz.

- Ha, ha, ha..., deyib hər ikisi məmnunluqla güldü. Ədhəm fikirləşdi ki, doğrudan da bu qoca qurd oxusa, çox yaxşı olar. Əsərim əməlli-başlı şəklə düşər, kamilləşər.

Ona görə əlini uzadıb əsərin cildə alınmış nüsxələrindən birini götürüb şairə uzatdı.

- Xəcalət söhbəti, əlbəttə artıqdır. Amma oxuyub qeydlərinizi etsəz, minnətdar olaram.

- Qeydlərimizi təkcə etmək yox , icazənizlə düzəlişlər edərik. Yəni lazım olan düzəlişləri. Əlbəttə, əgər ehtiyac olarsa.

- Sizin kimi böyük sənətkarın qələminə bütün əsərlərin ehtiyacı var. Tembolee mənim kimi ədəbiyyat lubitelinin.

-Ha, ha, ha.... deyə yenə hər ikisi güldü.

Sonra katibə məxməri çay gətirdi.

Katib içə-içə, - deyəsən birbaşa bura gəlmisiz, dedi.

- Bəli, maşını düz raykoma sürdürdüm.

- Mən nahar eləmişəm, siz yol gəlibsiz.

- Yəqin ac olarsız. Burda, bizdə yaxşı yeməklər var, nahar edərsiz, axşam mehmanxanada görüşərik. Neçə gün qalmaq niyyətiniz var?

Şair sualdan elə bil diksindi. Stəkanı qoyub yaşıl gözlərini katibim üzünə zilləyb dedi:

- Səhər tezdən çıxmalıyıq. Şəhərdə vacib iş var.

- Neynək, onda axşam görüşərik.

Bir az da ordan-burdan söhbətdən sonra şair söhbətin bitdiyini hiss edib ayağa qalxdı. Çünki qəbula başqa gələnlər də vardı.

Şairdən sonra nəşriyyat direktoru Əbilzadə daxil oldu. Ədhəm qalxıb görüşdü və şairlə olduğundan daha səmimiyyətlə görüşüb dedi:

- Oturun, nə yaxşı gəlmisiz. Sizi görməyimə şadam.

Direktor yuxa kimi yayıldı. Bu sözləri gör ona kim deyirdi. Rəhbərin ən yaxın adamı, ən zəngin bir rayonun xozeyni.

- Çox sağ olun Ədhəm müəllim . Qəzetdə oxuyanda ki, belə gözəl əsər yazmısız, gəldim bir nüsxəsini alıb plana salım.

- Plan hazırdır?
- Bəli, çoxdan. Artıq hər yandan keçib birbaşa çapa gedir.
- Sekadan da gəlib?
- Bəli, çoxdan.
Ədhəm gülümsəyib saçlarını sığalladı.
- Bir söz deməzlərmi?
- Nə söz, Ədhəm müəllim, hər şey öz əlimizdə deyil? Başqaları üçün əlbəttə artıq gecdir. Sizin üçünsə...
Və hər ikisi güldü. Ədhəm əsərin bir nüsxəsini də götürüb ona uzatdı.
Direktor əlyazmaya baxıb dedi:
- Əlbəttə, plana daxil etmədəndə çap edə bilərdik, amma planda olanda...
- Əlbəttə, əlbəttə, qoy plana düşsün.
- Bəli, belə yaxşıdır. İnşallah elə birinci kvartalda çapdan çıxar.
Və bir az ordan-burdan söhbət etdilər. Çünki Ədhəm söhbəti uzadırdı ki, şair yeməyini yeyib qurtarsın.
Sonra dedi.
- Həyətdə yaxşı yeməkxanamız var. Nahar edək, axşam mehmanxanada görüşərik. Xalq şairi də gəlib.
- Hə, Göyçayski müəllimi gördüm.
- Lap yaxşı, axşam bir yerdəyik.
Sonra iribaş uzunsifət rejisor daxil oldu. Eyni qaydada görüşdülər.
- Nə var, nə yox. Akademik Dram Teatrında vəziyyət necədir?
- Yaxşı deyil, Ədhəm müəllim. Təzə əsərlər yoxdur. Köhnə dramaturqlar qocalıb, cavanların yazdıqları da zəif olur. Bir-iki tamaşadan sonra gələn olmur.

- Allah bu Televiziyanı çıxardanın... Ədhəm güldü.
- Bəli, bəli, düz deyirsiz. Televiziya teatırı öldürdü. Amma teatr yaşamalıdır. Tərcümə əsərləri tamaşaya qoyulurmu?
- Qoyulur, ancaq uzunömürlü tamaşa yoxdur ki, yoxdur.

Hər ikisi susdu. Rejissor sanki niyə gəldiyini xatırlayıb dedi:
- Doğrusu, qəzetdə bu cür maraqlı mövzuda pyes yazdığınızı oxuyanda möhkəm sevindim.

Ədhəm bi nüsxə də götürüb vərəqlədi.
- Vallah, deyə bilmirəm, necə alınıb. Amma etiraf edim ki, həvəslə, ürəklə yazmışam.

İri, girdəgöz rejissor əsəri alıb dedi:
- İcazə verirsiz də, səhnə variantını hazırlayım?

Ədhəm gülümsədi.
- Məmnuniyyətlə. Amma əlbəttə mətnə toxunmadan, dialoqları dəyişmədən.
- Ədhəm müəllim, belə olsaydı, onda bu sizin dünyagörüşünüzə müdaxilə olar, müəlifliyyi mənimsəmə olardı. Allah eləməsin. Belə şey mümkünmü? Yalnız monoloq, dialoq və çoxobrazlı mübahisələri yığcamlaşdırmaq, bəzi məqamları lap sona saxlamaq lazım gələcək. Əlbəttə tamaşaçını gərginlikdə saxlamaq üçün.
- Bəli, bəli, başa düşdüm. Əsər onsuz da tezliklə çapdan çıxacaq.
- Lap yaxşı olar ki, müsbət rəylər, resenziyalar da gecikməsin. Belə ki, mənim plandan kənar iş görməyimə əsas olsun.
- Başa düşdüm. Kimlərin rəyi sizcə yaxşı olar.

- Görkəmli dramaturqların olsaydı, pis olmazdı. Amma, başa düşürsüz də, bizdə qısqanclıq...

- Kimin, konkret kimin müsbət resenziyası yaxşı olar.

- Məsələn Enlisifət Malakanskini - mən ata Malakanskini deyirəm.

- Oldu.

Və Ədhəm telefon dəftərini götürüb nömrələrə baxa-baxa – bizim əlimizdə deyil, bu dəqiqə yoxlarıq.

Və nömrəni yığıb gözləməyə başladı. Çox keçmədi ki, dəstəkdən quru, yastı və boş bir səs eşidildi.

- Eşidirəm.

Ədhəm bir anda bu səs sahibini tama başqa bir adam, tanış və şöhrətli "millət atası"nın səsi olduğunu görüb tez vəziyyətdən çıxdı.

- Gürzə müəllimdir?

- Bəli, danışan kimdir?

- Cənubdan Ədhəm Səlimovdur. Birinci katib.

- Ədhəm? Xoş gördük, əzizim. Nə əcəb bizi yad etmisiz.

- Gürzə müəllim. Siz həmişə nəinki yadımızda, inanın ki, ürəyimizdəsiz. Sadəcə sizi narahat etmək istəmirik.

- Yazıçılar Cəmiyyətinin sədri yastı-yastı güldü.

- Çox sağ ol, əzizim. Rayonda nə var, işlər necədir?

- Hər şey yaxşıdır. Planlarımız yerinə yetirilib, məhsul bayramına hazırlaşırıq.

- Çox yaxşı, mənə görə qulluğunuz.

Rejissor maraq və təəccüblə qulaq asırdı. Çünki hiss etmişdi ki, Ədhəm Malakanski ilə yox, başqa adamla - şöhrətli Gürzə müəllimlə danışır.

- Gürzə müəllim, rayonun yaxşı vaxtıdır. İmkanınız olsa, gəlib bir-iki gün qonaq olsaydınız, bizi sevindirərdiniz.
- Eləmi? Yaxşı. Çalışıb sabahda, birisigündə gələrəm. Hələlik.
Ədhəm dəstəyi qoyub qəhqəhə çəkdi.
- İşə bax ha, dedi, - kimə zəng vurmaq istəyib gör kimə düşmüşəm.
- Gürzə müəllimə? – deyə rejissor heyrət və heyramlıqla soruşdu.
- Hə də. Səhv salmışam. Amma mən bilən bilən Gürzənin rəyi çap olunsa daha yaxşı olar, hə?
- Əlbəttə, Ədhəm müəllim. Yüz qat.
- Gələcək və elə bilirəm ki, otkaz eləməz.
- Oldu.
Yekəbaş rejissor ayağa qalxdı.
Ədhəm görüşüb dedi:
- Axşam qonaq evində sizi gözləyərlər. Elə indi gedin, nahar edib rahatlanın. Axşam görüşənəcən.
Doğrudan da axşamüstü işlərini başa vurub Ədhəm mehmanxanaya gəldi. Hər üç qonağla görüşüb sonra bir yerdə şam etdilər. Dadlı təamlar, konyak, araq və təbii ki, sağlıqlar.
Qonaqlar keflənib xoşbəxt halda Ədhəm müəllimi, onun əsərini xeyli tərifədilər. Ədhəm az danışıb çox qulaq asırdı. Görüşə yekun vurub xalq şairi Göyçayski dedi:
- Biz, bir-birimizdən xəbərsiz, ürəyimizin səsiylə Ədhəm müəllimin sevincinə şərik olmağa gəlmişik. Çünki, insan üçün yaratmaqdam böyük sevinc yoxdur. Doğrudur, tərif deməkdə hamı bilir ki, mən bir xəsisəm.

Lakin doğrudan da Ədhəm müəllim şedevr yaradıb. Amma hər şedevr də təzə ev, buna kimidir. Təmizlənməyinə, bəzək işlərinə ehtiyac var. Ona görə gəlişimi faydalı hesab edirəm.

Əsəri redaktə edib yaz. Bir jurnalımda ön sözlə çap etdirmək mənim borcumdur. Çünki gözəl əsər milli nailiyyətdir və bütün xalqın sərvətidir.

Beləliklə gecədən keçənə qədər qonaqlar yeyib-içdilər. Sonra Ədhəm onlarla xudahafisləşib evinə gəldi.

Qonaqlar səhər oyanıb çay-çörək yedikdən sonra raykomdan biri gəlib onların hərəsinə bir konvert verdi.

Maşınların baqajniklərində də sovqat hazır idi.

Və qonaqlar şad-xürrəm bir-birlərinin ardınca maşına oturub paytaxta üz tutdular.

Konvertlərdə aydındır ki, hərəsində müxtəlif miqdarda xeyli pul vardı.

Qonaqlar yolboyu Ədhəm müəllimin insanlığından, əsərinin gözəlliyindən danışdı. Ta paytaxta kimi konvertdəki məbləğ onların ürəyini isitdi.

Bəli, onlar səhv etməmişdilər. Bu adam istedadlı sənətkar olmaqla bərabər həm də arif və qanacaqlı bir kişi idi.

Hər üç maşındakılar tezliklə evə çatıb bu hörmətin əvəzini çıxmaq üçün tələsirdilər.

İki gün sonra isə, vəd verdiyi kimi – yəni şənbə günü Yazıçılar İttifaqının sədri, qocaman xalq yazıçısı da gəldi.

Ədhəm onu tamam başqa şəkildə qarşıladı. Öpüşdülər. Çay içib xeyli söhbət etdilər.

Ədhəm gördü ki, bu adam siyasi tufanlardan şıxmış, onlarla, yüzlərlə dostunu güdaza vermiş, tamamilə “buz

heykəl”dir,  amma eyni zamanda hər cür hakimiyyətə uyğunlaşan  və bütün bunlarla bərabər hardasa  ədalətli ədəbiyyat və sənət adamıdır.

Tez-tez diliylə dodaqlarını yalaması xəstəlik deyil, psixoloji aləmiylə bağlıdır.

Tərif azartıdır və  fürsət ələ düşən kimi milli mənafe cəngavəridir.

- Gürzə müəllim, oğlunuz nə əcəb ədəbiyyatçı olmadı? – deyə  Ədhəm gözlənilmədən soruşdu.

Gürzə müəllim ürəkdən güldü.

- Hə,  indi bizdə dəbdir, bəzilərində az  da olsa istedad var, amma  əksəriyyəti ataların kürəyində oturublar. Süleymanla mən buna getmədik. Uşağı zorlayıb qətiyyən marağı olmadığı sənət sahibinə çevirmək faydasızdır. Gec-tez diletant olduğu üzə çıxacaq və üstünə düşəcəklər.

Hə,   Ədhəm müəllim, eşitmişəm siz də nəsə yazmısız.

Ədhəm  azca qızardı.

- Bəli, uzun illər ürəyimdə gəzdirdiyim düşüncələrimi böyük Füzulinın obrazında  cəmləməyə çalışmışam. Amma ideoloji cəhətdən bir az axsayır.

- Nə mənada?

- Gürzə müəllim, üzr istəyirəm,  mən o fikirdəyəm ki, sənət, əlbəttə böyük sənət elə sənətçindir ki, var.

Gürzə müəllim  yenə dodaqlarını yaladı.

- Müəyyən mənada  əlbəttə  haqlısız,  - dedi. Bir də ədəbi aləmdə  diletantlar dövrü keçib.  Üstəlik, əgər Füzuli kimi  mürəkkəb  dünyagörüşlü bi dahinin obrazını yaratmaq istəmişsinizsə, tamamilə haqlısız.

Və  sonra yenə şaqqanaq çəkib gülə-gülə dedi: - Füzulini kommunist etməyə dəyməz.

Ədhəm də ləzzətlə güldü.
- Bəli, Gürzə müəllim, elə əbədi dəyərlər var ki, həmişə olub və olacaq.
- Baxmaq olarmı? – deyə Gürzə müəllim əlini uzatdı və Ədhəm ilk dəfə gördü ki, bu adamın qolu nə qədər uzun imiş.
Əsərin bir nüsxəsini götürüb ona uzatdı. Gürzə alıb vərəqlədi, sonra ilk səhifəsindən bir az oxuyub qaşlarını çatdı, sonra örtüb stol üstə qoyaraq dedi:
- Klassiklərin də öz taleyi var. Nizami kimi birinin bəxti gətirir, digərini isə yada salan olmur. Məntiqlə ən çox Füzuli haqqında yazılmalıydı. Amma deyəsən birincilik sənə nəsib olub. Elə bunun özü də bir keyfiyyətdir.
Sonra yazıçı-akademik bir də yazını vərəqləyib bəzi səhifələrdə dayandı və nəhayət dedi:
- İcazənizlə mən də oxuyaram, rəy yazıb çap etdirərəm.
- Gürzə müəllim, minnətdar olaram, - deyə Ədhəm gözləri parıldayıb ürəkdən dedi.
- Amma, - Gürzə gülümsəyib davam etdi, - işdir, ürəyimcə olmasa, rəyim diplomatik şəkildə olacaq, aydındırmı?
Ədhəm bir şey anlamayaraq, – başa düşmədim, - dedi.
- Yəni hətta üəyimcə olmasa, məni təmin etməsə də ümumi ifadələr və çapa layiq olması haqqında yekun fikirlə.
- Aa..., - deyə Ədhəm başını razılıqla yırğaladı – Gürzə müəllimin rəyi zərərimizə olmaz.
- Əlbəttə, əlbəttə. Mən ümid və hiss edirəm ki, tam mənada müsbət bir rəy olacaq.

Ədhəm saatına baxıb ayağa qalxdı.
- Gedək sizi rahatladıb şam edək.
Ayağa durdular. Pillələrdən düşüb qapıda dayanan maşınlara tərəf gəldilər. Kim onları görürdüsə, dayanır, salam verir və gözləyirdilər.
Qabaqda Ədhəmin, arxasınca da Yazıçılar Birliyinin sədrinin "VAZ-21"-i, dəniz sahilindəki səfalı qonaq evinə gəldilər.
Ertəsi gün Gürzə müəllimi Ədhəmin özü yola saldı. Qonağa əlbəttə, içi pulla dolu olan bağlı konvert verilmədi. Amma maşınının baqajniki dolu idi. Və bunu hiss edən Gürzə Braminov müəllimin çox razı olduğu üzündən yağırdı.
Bu görüşlərdən sobra çox gözlənilməz hadisələr baş verdi.
Respublikanın "şiroko şaqayet"lə addımlaması öz bəhrəsini verdi. Rəhbər zəng vurub dostu Ədhəm Səlimovu yanına çağırdı.
Görüşüb öpüşdükdən sonra "xozeyn" dedi.
- Əzizim, mən təxminən bir aya yuxarı gedəsi oldum. Sənin də daha rayon miqyasından yüksəlmək vaxtındır. Yerinə kimi məsləhət bilirsən?
Bu gözlənilməz xəbərdən bir anlıq duruxub Ədhəm sonra dedi:
- Əlbəttə, ikinci katib Dilşüma xanım yaxşıdır.
- Lap yaxşı. Get plenum çağırıb Dilşümanı öz yerinə qoy. Bir ay dincəl. Bizdə plenum olanda Mərkəzi Komitədə kənd təsərrüfatı katibi kimi fəaliyyətə başlayarsan. Birinci olmaq, başa düşəürsən də, mümkün deyil. Ağ olar, yaxşı düşməz. Katib olub rahat

yaşayarsan. Mən də uzaqda deyiləm. Arabir gəlib dəyəcəyəm.

Və ayağa qalxıb görüşdülər.

Ədhəm fikirli halda Cənuba qayıtdı.

Yol uzun hey düşünürdü. Bəli, 11-12 illik şahlıq dövrüm başa çatdı. Bu, doğrudan da əsl şahlıq idi.

Ömründə qırx beş ili sadə və yoxsul müəllim, sonrakı on iki ili isə şah və ya sultan. Axı keçmişdə şahlar da bir şəhərdə hökmranlıq ediblər. Amma onların əlində nə olub ki... Heç nə, sadəcə vergi yığmaq.

O isə yüz min adamı qul əməyinin bəhrəsinin qazancını istədiyi kimi xərcləyib, kimə nə qədər lazımdır verir, qalanını özünə götürürdü. Üstəlik rayonda gözəl kim varsa, onun məşuqəsi idi. Yox, o heç kimi zorlamırdı. Bu vəzifəpərəst dəyuslər özləri öz arvadı və qızlarını ona təqdim edirdilər.

Yaxşı pulu, qızılı, ləl-cəvahiratı vardı. Hətta bundan sonra işləməsə belə, ona kifayət edərdi.

Deməli bir ay istirahat edəcəkdi. Bu bir ay ona çox lazım idi. Vəzifələri təzədən ona-buna satacaq, yaxşı yeyib-içib o məsələ...

Amma doğrudan da hiss edirdi ki, artıq doyub.

Paytaxtda böyük vəzifədə işləmək dövrü çatıb. Doğrudur, burda o, artıq birinci adam deyil. Amma ona daha nə lazımdır. Heç nə.

Əsərini çap etmək yüz il yaşayıb tarixə düşmək.

Bu fikirlərlə Cənuba çatıb evinə gəldi. Arvad-uşağı yığıb əhvalatı danışdı. Qərarə aldılar ki, gecə köçsünlər. Paytaxdan beş otaqlı gözəl mənzili vardı.

O, isə burada qalıb plenumdan sonra beş-altı kilometr aralıdakı xəlvəti evində qalıb vəzifə bölgüsü ilə məşğul olacaq.

Belə də etdi. Ertəsi gün raykomun plenumunu çağırıb məşuqə və cariyəsini öz yerinə təyin edib istirahət evinə getdi. Orda oturub bunu ora, onu bura təyin etməklə pul yığmağa başladı.

Lakin qəribə bir hadisə baş verdi. Kimsə söz buraxdı ki, bəs rəhbər Ədhəm yoldaşı vəzifədən qovub.

Vəssalam. Xəbər ildırım sürəti ilə əvvəl rayona, sonra bütün respublikaya yayıldı.

Əlbəttə nə paytaxdakı rəhbərin, nə də dəniz sahilindəki səfalı mənzilində keyf edən Ədhəmin bundan xəbərləri yox idi. Heç olsaydı da, əhəmiyyət verməyəcəkdilər. Onlar öz işlərində idilər və paxıl, şərəfsiz, ağzı ətə çatmayan kütlə öz uydurması ilə təsəlli tapıb ləzzət alırdı.

Amma on-on beş gün keçəndən sonra qəribə bir hadisə baş verdi.

Müxtəlif günlərdə üç maşın, əlbəttə bir-birlərindən xəbərsiz Cənuba gəlib raykom binasının qabağında dayandılar. Bunlar maşın sahiblərinin sürücüləri idi. Bu sürücülər əllərində Ədhəmin əsərinin əlyazması, yuxarı qalxıb onu I katibin katibəsinə verərək düşüb getdilər.

Əlyazmanı alan “müəllimə” tez Ədhəmə zəng vurdu.

- Ədhəm müəllim, Bakıdan maşın gəldi sizin əsərinizin əlyazmasını bizə qaytardı.

- Necə, - deyə sabiq katib təccüb etdi, - nə dedi?

- Heç nə. Katibəyə verib çıxıb getdi.

Ədhəm quruyub qaldı. Pah atonnan, alçaqlığa baxın. Deməli, eşidib ki, məni işdən çıxarıblar, ona görə, ya

qorxusundan, ya da daha qorxmadan, əh, nəyimə lazım, birdən işin içindən iş çıxar – deyib əlyazmanı qaytarıb.

- Yaxşı, göndər bura.

Və bir saatdan sonra, əlyazma gəldi.

Ədhəm əlinə alıb vərəqlədi. Hə, xalq şairinə verdiyi nüsxə idi. Amma oxumuşdu, çünki hər səhifədə düzəlişlər vardi.

- Hə, yenə sağ olsun. İşin əlli faizini görüb.

Sonra bütün düzəlişləri oxudu. Hamısı yerində və faydalı idi.

Əla! Pul da, pay da halaldır. Hərçənd ki, ön sözlə çapından yayındı.

İki-üç gündən sonra isə daha üç əlyazma qayıtdı.

Əvvəl Ədhəm xeyli pərt olub bu adamları cəzalandırmağı qərara aldı. Çünki Mərkəzi Komitədə bu sahayə baxan ideoloji katiblə danışıb onları cəzalandırmaq olardı.

Amma sonra sakitləşib bərkdən gülməyə başladı. Çünki əslində burda təəccüblü heç nə yoxdu. Şayiələrin təsiri özünü göstərməliydi. Hansı nəşriyyat direktoru ölkə başçısının vəzifədən kənarlaşdığı adamın əsərini çap edərdi? Heç kim. Çünki dərhal vəzifədən qovulardı. Eləcə rejissorlar da.

Lakin Ədhəm orasını bilmədi ki, Yazıçılar İttifaqının sədri, akademik Braminov müəllim şayiələri eşidəndə əlyazmanı heç geri qaytarmağa lüzum görməyib zibil yeşiyinə atmışdı.

Ədhəm əlyazmaları kənara qoyub heç nə olmamış kimi vəzifə bölgüsünü davam etdirib o ki var pul yığdı. Və respublika Mərkəzi Komita plenumuna bir həftə qalmış Bakıya gəldi.

Doğrudan da paytaxtlar paytaxtında plenum keçirildi və respublika rəhbəri Ümumittifaq Siyasi Bürosunun üzvü seçilməklə imperiya miqyasında yüksək vəzifəyə təyin olundu.

Dərhal respublikada Partiyanın plenumu toplandı və başqa dəyişikliklərlə bərabər Ədhəm Səlimov yoldaş Mərkəzi Komitə sədri seçildi.

Həmin gecə Braminovun, nə xalq şairi Göyçayskinin, nə "Müəllif" nəşriyyatının direktoru Əbilzadənin, nə də üz rejissorun gözünə yuxu getdi. Xüsusilə xalq şairi ilə akademik çox pərt oldular.

Bu qədər təcrübəli adamlar necə belə kobud səhv buraxa bilmişdilər. İndi bu adamla üz-üzə gələndə necə onun üzünə baxacaqdılar. Axı mütləq üz-üzə gələcək, plenumlarda və başqa iclas və yığıncaqlarda istər-istəməz görüşməli olacaqdılar.

Braminov əlbəttə əlyazmanı itirdiyini və ya və ya mütləq yazacağını deyə bilərdi. Amma inandırıcı olmayacaqdı. Çünki əsər əlində olmadan rəy yazmaq çətin idi. Tərslikdən heç açıb oxumamışdı ki, birtəhər nəsə yazsın. Çünki heç nə yadında qalmadığına görə heç ümumi sözlərlə də bir şey alınmazdı. Bəs necə olsun?

Xalq şairi isə o qədər ağır həyəcan keçirmədi. Onun elə bir vəzifəsi yox idi və üstəlik Ədhəmlə görüşməyə də bilərdi. Çünki belə situasiyalardan çox çıxmışdı.

Nəşriyyat direktoru Əbilzadə əvvəl Ədhəmin qəbuluna gedib üzr istəməyi qərara aldı. Ancaq bunu necə söyləyə biləcəyini, bunun üçün həddən artıq alçalmalı olacağını düşünüb məsələni öz təbii axarına buraxmağı qərara aldı. "Cəhənnəmə ki, - deyə düşündü. Nə olur-olsun, uzağı

vəzifədən çıxarmaq olacaq. Arvadın sözünə baxanda, əlbəttə belə olar."

Ədhəm paytaxtda işə başladı. İndi demək olar ki, bütün respublika ona baxırdı. Əlbəttə birinci katib və onun mənafeyi ilə işi yoxdu. Hərə öz işi, öz sahəsi ilə məşğul idi.

Buna baxmayaraq o, ideolji katib ilə danışmaq qərarına gəlib bu yolla xalq şairini deputatlıqdan, Yazıçılar İttifaqının sədri və akademiki isə vəzifə və avtomatik olaraq SSRİ deputatlığından məhrum etməyi qərara aldı.

Yaşca ondan xeyli cavan olan həmkarını otağına çağırdı. Onlar həm də həmyerli idilər.

Ədhəm ona dedi.

- Gürzəni bizim adamla əvəz etmək lazımdı. Mənimlə razısanmı?

- Bəli, mənimdə ondan xoşum gəlmir. Keçmişi bir az ləkəlidir. Ümumiyyətlə su bir yerdə qalanda iylənər.

- Öz iştirakı ilə bir az hay-küya səbəb olar. Çünki yalançı kultu var. Onda belə edərik. Şöbədən zəng vurub Həmkarlar İttifaqının xətti ilə Fransaya turist ezamiyyəti var. Tamahkardır. Dərhal dəstə rəhbəri kimi özü gedəcək. İkisi də güldü.

Ertəsi gün elə də etdilər. İnstruktor Gürzəyə zəng Fransaya dəstə başçısı kimi getməyə kimi məsləhət gördüyünü soruşanda dərhal cavab gəldi ki, - siz kimisə nəzərdə tutmamısız ki?

- Xeyr, Gürzə müəllim. Seçimi sizə həvalə edirik.

- Çox sağ olun. Onda bəlkə özüm gedim.

- Gürzə müəllim, lap yaxşı. Sizdən ehtibarlı namizəd kim ola bilər, - deyə instruktor ürəklə cavab verdi.

Və bir neçə gün sonra qoca qurd tələdəki yağlı yemi udmaq istərkən,   daha bir səhv buraxmışdı.

O,  ölkədən çıxan kimi Yazıçılar İttifaqının plenumu çağırıldı və katiblərdən DTK ilə bağlı olan istedadsız, amma diribaş  Kamran  Qasımlı  sədr seçildi.

Elə həmin günlərdə "Müəllif" nəşriyyatının direktoru da Ədhəmin qəbuluna düşdü.

- Qoy gəlsin,  görək nə deyir, - deyə Ədhəm güldü.

Az keçmədi ki,  Əbilzadənin qızarmış iri ətli üzü qapıda göründü.

Ədhəm onun qapıda dönub qaldığını görüb – gəl, yaxına gəl də.

- Elə qələt eləmişəm ki,  yaxına da gələ bilim.

Yavaş-yavaş gəlib çatanda Ədhəm dedi. – Otur,  nə var,  nə yox,  işlər necədir?

- Vallah,  yoldaş Səlimov,  mən əlyazmanı baş redaktora vermişdim,  o qanmaz oğlu qanmaz götürüb göndərib.

- Yaxşı,  indi de görüb,  həftəyə buraxa bilərsən.

Əbilzadə elə bil cana gəldi.

- Ədhəm müəllim,  iki həftəyə sənin yanındayam. İndi bir gün,  iki gün tez,  ya gec ola bilər.

- Yaxşı.

Direktor ayağa durub sevincək – mən gedə bilərəm? – dedi.

Ədhəm güldü.

- Hara,  bəs əlyazma?

- Hə,  hə,  bağışlayın.

Əlyazmanı alıb getdi.

Ədhəm ah çəkib başını buladı.

- Millətin zərrə qədər də kişiliyi, mənliyi qalmayıb. Ancaq günah onlarda deyil.

Bu yerdə əhvalata nöqtə qoymaq olardı.

Ancaq akademik Gürzə Braminovun telefonla vəzifədən azad edildiyini Parisin məşhur bir mehmanxanasında eşidərkən yüngül də olsa infarkt keçirdiyini qeyd etməyə dəyər.

Deməli, yenə məni aldatdılar. Tamah ağlıma güc gəldi.

Buna baxmayaraq, Braminov uzun ömür, səksən beş il yaşadı.

noyabr – dekabr 2012